DOI:10.30546/gdu.5.2025

**UOT:82-3.512.162**

# "KOBLANDIBATIR" ETNOENERGETİK SİSTEMİN ƏVƏZSİZ NÜMUNƏSİ KİMİ

***Nağiyeva Jalə Xəlil qızı***
***Bakı Dövlət Universiteti,***
***Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının doktorantı***
***Jalakhalilova@yahoo.com***

**Xülasə**: *Epos məfkurəsi bütün mahiyyəti və polifonik məzmunu ilə milli özünüdərkin ən mükəmməl nümunəsidir. Mifdən üzü bəri daşınanlar və mifin ehtiva etdiyi eyni sistem üzrə həm də əlavələrlə eposa ötürülmə xüsusiyyətinin aparıcılığı ilə funksional məzmun daşıyır. Dünya xalqlarının zəngin mədəniyyət abidələri arxaik qatın ən incə elementlərinə qədər mifə hansı şəkildə daxil olursa eyni axarda da eposda özünü ümdə olan kimi təzahür etdirir. "Bilqamıs", "Manas", "Oğuz Kağan", "Alpamış", "Boz Qurd", "Köç", "Törəyiş", "Kitabi-Dədə Qorqud", "Uralbatır", "Edige", "Corabatır", "Maday Kara", "Kitabi-Battal Qazi", "Koroğlu" və s. dastan silsiləsi türk etnik kodunun ana axarını müəyyənləşdirən monumental mədəniyyət hadisələridir. Daha doğrusu, dünyanın o başından günümüzə gələn etnosun türklük səviyyəsində həyat və yaşam salnaməsidir. Cahanşümul dövlət məfkurəsinə söykənən protürklər eyni düşüncəni və təsəvvürü sonrakı dönəmlərdə də bir kimlik nümunəsi olaraq əsas götürmüşlər.*

*Kutsal nizam, ailə institutunun ortaya qoyduğu təsəvvür, eləcə də sosial konsorsiumun müəyyənləşdirdiyi təsəvvür modeli ən incə məqamları ilə qəbilə, tayfa sferasında təkrarlanmaqla gedilən yolun dönməzliyini olum-qalım səviyyəsində təlqinə köklənmişdir. Epik düşüncə bu prosesdə aparıcılığı öz üzərinə götürməklə həm də inam, etiqad, atalar sözü, məsəl, əfsanə, rəvayət, mərasim folkloru, rəqs, musiqi, uşaq oyunları və s. səviyyəsində də sərgiləməyi bir məqsədə çevirmişdir. "Koblandıbatır" bunun nümunəsi olaraq türk epos təfəkküründə milli özünüdərkin ən mükəmməl nümunəsi olaraq əsaslı təsəvvür formalaşdırır.*

**Açar sözlər**. Epos, dastan, əfsanə, mif, atalar sözü, məsəl, mədəni qəhrəman, türk dastan ənənəsi və s.

**Keywords.** Epic, epic, legend, myth, proverb, parable, cultural hero, Turkish epic tradition, etc.

**Ключевые слова.** Эпос, эпос, легенда, миф, пословица, притча, культурный герой, турецкая эпическая традиция и т. д.

**Anahtar kelimeler.** Destan, destan, efsane, mit, atasözü, mesel, kültürel kahraman, Türk destan geleneği vb.

**Giriş**. "Koblandıbatır" qazax xalqının qəhrəmanlıq dastanıdır və bütünlükdə türk xalqlarının yaratdığı mədəniyyət abidələri ailəsində mükəmməllik sərgiləyən sənət örnəyi olaraq diqqət önünə gəlir. Dastan informasiyası invariant səviyyəsində mifik dünyanın hadisələri kontekstində əsaslı bir zənginlik sərgiləməklə bütünlükdə türk elləri boyu xalq yaddaşında yüz illər boyunca dolaşmışdır. Söyləyici repertuarında dillər əzbəri olan "Koblandıbatır" ustad akınların sirli-sehrli çalğısında və oxusunda həm də bir əxlaq, mənəviyyat toplusu olaraq qəlblərdə yaşarlıq qazanmışdır. Bu söyləmələr onu da deyək ki, təkcə qazaxların məskunlaşdığı coğrafi ərazilərlə məhdudlaşmamışdır, türk ellərini uyğurlardan qırğızlara, türkmanlardan özbəklərə qədər geniş bir auditoriyanı öz içinə almışdır. Folklorşünaslar öz təhlillərində məhz bunlara diqqət yetirməklə onun ehtiva etdiyi məzmuna həssaslıq göstərməklə, həm də akınlar baxımından söyləyici özünəməsxuxluğuna da diqqət yetirməyə çalışmışlar.

DOI:10.30546/gdu.5.2025

**Epos tarixi gerçəkliyin bədii salnaməsi**. Dastan türk xalqlarının tarixinin, məişətinin, ailə münasibətlərinin, eləcə də dövlət məfkurəsinin toplum səviyyəsində ən mükəmməl nümunəsi olaraq əsaslı təsəvvür sərgiləyir. "Manas", "Semetey", "Seytek" kontekstində olan zənginlik eyni axarda "Koblandıbatır", "Edige", "Alpamış", "Ayman-Şolpan", "Qız-Jibek" və s. kimi şedevrlərdə davam edir. Xalqın keçib gəldiyi yolun bədii salnaməsi olaraq səciyyələnən bu dastanlar maddi və mənəvi arealı, toplumun həyat və məişətində olanların ümumi mənzərəsini öz içinə almaq potensiyası ilə bir tarix olmaya yüklənir. Mənəvi materiyanın ötürülmə mexanizmləri ilə olanları sıralayan epos konstruksiyası stixial xarakteri ilə toplumun ruhani dünyasını üslub və təhkiyə mexanizmləri ilə əhatələməyi məqsədə çevirir.

"Koblandıbatır", eləcə də bu sistemin digər şedevrləri onu yaradan toplumların ən qədim təfəkkürü üzərində özünü nümayiş etdirməklə söyləyici repertuarında digər əlavələri də təmərgüzləşmələr və transformalar müstəvisində içinə almaqla davam edir. "Qazax qəhrəmanlıq eposunun ən qədim qatı patriarxal tayfa münasibətlərinin mövcud olduğu VIII-X əsrləri əhatə edir. Qəbilələrarası qapalılığın pozulduğu, qəbilələrin etnik konsoludasiyası, qəbilələrarası müharibələr, köçlər, başçıların xarizmatikliyi ilə seçilmiş insanlarla bağlı yaranmış rəvayətlər dastanların əsasına qoyulmaqla onların nüvəsini təşkil edirdi. Dastanların epik təhkiyə üslubunun formalaşması və inkişafı əsasən güclü qəhrəmanların adı ətrafında cilalanırdı. Belə epik nümunələrin bir sırasında digər məsələlərlə yanaşı, həm də qəhrəmanların mənşəyi haqqında məlumat verilir -Koblandı -qaraqıpçaq, Alpamış -kunqrat, Qəmbər -noğaylı tayfalarından olduqları və s. göstərilir" **(6, 218)**. Dastan informasiyası müəyyən hüdudlar daxilində konkret zamanı və hadisəni əhatələməklə diqqət önünə gəlir. Ancaq onun mahiyyətində olanlar və təhtəlşüur səviyyəsində işarələnmələr çox dərin qatları, ibtidai düşüncəyə dayananları bir məsəd və məram olaraq içinə almaq istəyi və məharəti ilə spesifikləşir. "Manas" **(7)** , "Kitabi-Dədə Qorqud" **(5)**, "Edige" **(11)** "Maday Kara" və s. timsalında olan hadisə və epizodlar bunun parlaq nümunəsidir.

"Koblandıbatır" başlanğıc və üst qatda olanlar kontekstində mükəmməl bir təsəvvürü diqqət önünə gətirir və onun geneloji sistemi digər əlavələrə də şərait yaradır. Zaman və məkan xronotopları aspektində özünü göstərən hadisə və epizodlar, akın söyləyiciliyinə dayanan təqdimatlar, epik qəhrəmanın səfərləri və elqurma düşüncəsi daxili simmetriyası və tipologiyası ilə bunları aydınlıqla göstərir. Məsələn, "Manas" ətrafında sistemli təhlillər aparan P.Əfəndiyev yazır: "Nəzərə almaq yerinə düşər ki, ayrı-ayrı manasçıların ifa etdikləri variantlarda (məs., Saqımbay Orozbakovun) dastan qəhrəmanı Manasın dövründən əvvəlki əsrlərdə bir neçə qırğız xanlarının adı çəkilir. Manasın şəcərəsi haqqında məlumat verilir. Bu epizodlar Manas haqqında kifayət qədər hərtərəfli məlumat əldə etməkdə böyük rol oynayır. Biz həmin hissədə Manasın babalarının, atasının yaşadığı mühitlə tanış olur, özünün dünyaya gəlməsi, uşçaqlıq çağları barədə geniş epik təfsilatla üzləşirik" **(3, 79)**. Epos etnosun tarix, mədəniyyət, elat həyat tərzi, dövlət məfkurəsi, mifik dünyagörüşü və s. haqqında ən möhtəşəm qaynaqdır. Folklorşünaslar, etnoqraflar, musiqişünaslar, tarixçilər və s. elm sahələrinin mütəxəssisləri **(1; 8; 9; 10)** çoxyönlü araşdırmalarında dastan informasiyasından yararlanmaqla mahiyyətə varır və daha dəqiq mülahizələr yürüdə bilmək imkanı qazanırlar. Çünki folklor etnokulturoloji mədəniyyətin təfəkkür intelleksiyasını əks etdirə bilmək baxımından müstəsna əhəmiyyət kəsb edir. Hansısa bayatı, nəğmə, atalar sözü, məsəl əfsanə, rəvayət dastan və s. etnosu ehtiva etmək potensiyası ilə daha dəqiq və təbii olan düşüncə modelidir.

Eposun bu cür əhatəlilik və dəqiqlik səviyyəsində formalaşdırdığı təsəvvür müstəsna imkanlılıqla diqqət önünə gəlir. "Qədim türk eposu, araşdırmalar göstərir ki, təxminən e. ə. I minilliyin ortalarında formalaşmışdır; həmin dövrə qədər türk eposunun hansı tarixi, ictimai-kulturoloji mərhələlərdən keçib gəldiyi barədə məlumatlar ya çox azdır, ya da yoxdur. I

DOI:10.30546/gdu.5.2025

minilliyin türk eposu (ümumən mədəniyyəti) isə e.ə. V minillikdən başlayaraq gələn Turan-Altay mədəniyyətinin varisi idi -türk, monqol və tunqus-mancur eposları kimi, tarixi bir diferensasiyanın nəticəsi idi" **(2, 13).** "Manas", "Koblandıbatır", "Kitabi-Dədə Qorqud", "Alpamış" və s. kimi böyük mədəniyyət abidələri həmin əski layın Turan-Altay mədəniyyətinin çox əski qatının oyanışı və hərəkətliyi timsalında əsrləri adlayaraq e.ə.V minillikdən e.ə. I minilliyə doğru irəliləyir. Əlbəttə bu axarın sərgilədiyi tendensiya əlavələrə şərait yaradır, təmərgüzləşmə və diferensasiya səviyyəsində gedən prosesləri də öz içinə alır. Burada diqqət yetirilməli digər məqam adı vurğulanan əvvəlki dönəmlərin mənzərəsi ilə əlaqədar olan təsəvvürlərdir. Dayanacaq yeri isə müxtəlif kontekstlərdə ayrı-ayrı epizodik düşüncə aspektində olan miflərdə olanlara bağlanır. Mif bütün bu olunan və yada gəlinənlərlə etnosun mövcudluğunun başlanğıc nöqtəsini və sonrakı dönəmlərin proseslərini içinə almaq, həm də eposa gətirib çıxarmaq baxımından əvəzsizdi. Milli mədəniyyət təsəvvürünün başlanğıc nöqtəsi funksiyasında özünü nümayiş etdirir və sözün həqiqi mənasında da belə bir stixiyanı özündə nümayiş etdirmək funksiyasına yüklənir.

**Türk epos məfkurəsi və "Koblandıbatır"**. Türk epos məfkurəsinin ən möhtəşəm abidələrindən olan "Koblandıbatır" başlanğıc epizodu, eləcə də mətn axarında sərgilədiyi təsəvvür etnik mədəniyyətin əxlaq, davranış, sosium səviyyəsində təqdiminə köklənir və bilgi vermək spesifikası ilə nəzər-diqqəti cəlb edir.

Keçmiş, ötmüş zamanda,
Qaraqıpçaq elində,
Bir Koblandı varıydı.
Atası bunun Toktarbəy,
Xalqa yaxşı tanış bəy.
Qədərsiz idi varı. **(6, 10)**.

Mətn informasiyası və epik təhkiyənin təqdim etdiyi bilgi dövrü, onun bədii-estetik, tarixi-ideoloji aspektlərini özünəməxsusluqla canlandırmağa həssaslıq göstərir. Toktarbəyin xeyirxahlığı, zənginliyi, həyat şəraiti, gəzib-dolaşdığı yerlər və s. haqqında verilən məlimatlar epik qəhrəmanın həyat salnaməsi olaraq diqqət önünə gəlir. El-obada, qıpçaqlar arasında böyük şan şöhrət sahibi olan dastan informasiyası yaşadığı acıları da sıralamaq baxımından diqqətçəkici təsir bağışlayır. Bu və buna bənzər hadisələr müxtəlif zaman kəsiklərində yaranmış dastan nümunələrində, nağıllarda lazımı qədər özünü göstərə bilmək xüsusiyyəti ilə spesifikləşir. "Elin şan-şöhrətiydi" təsəvvürü ilə dillərdə dastan olan Toktarbəyin səksən yaşa qədərki həyatını, yaşam tərzini sərgiləyən epos məfkurəsi övladsızlıq acılarını da diqqət önünə gətirir və əsas motiv olaraq sonrakı prosesin gedişinə işıq tutur. Üzü gülməyən müdrik qocanın kədəri bütün qıpçaq elinin qəm-qüssəsi, ağrı-acısı kimi göstərilir və "bəxtinə düşən şahinin qırıq oldu qanadı" -deyə təqdim edilir.

"Toktar qüssələnirdi, qıpçaq kədərlənirdi" düşüncəsinin və yaşanan vəziyyətin çıxış yolu xalq yaddaşında, etnik şüurun müəyyənləşdirdiyi təsəvvürdə müxtəlif formalarda (əslində ifadəlilik anlamında eyni təsəvvürü sərgiləməklə) özünü göstərir. "Kitabi-Dədə Qorqud" eposunda bunun əvəzsiz örnəkləri var. "Dirsə xan oğlu Buğacın boyu", "Baybura oğlu Bamsı Beyrək boyu" bunun mükəmməl örnəyi olaraq əsaslı bir təsəvvürü, inam, etiqadlar baxımından problemin çözümü haqqında olanları arxaik qat kontekstində faktlaşdırır. "Oğlu-qızı olmayanı tanrı taala qarğayıbdır, biz dəxi qarğarız bəlli bilgil – dedilər.

(Elə olsa) səndənmidir? Məndənmidir? Tanrı taala bizə bir yetman oğlul verməz. Nədəndir? – dedi.

(Dirsə xanın xatununa qəhər gəldi, qara qıyma gözləri qan-yaş doldu) söyləmiş, görəlim, xanım, nə söyləmiş.

DOI:10.30546/gdu.5.2025

-Hey, Dirsə xan! Mənə qəzəb etmə! İncinib acı sözlər söyləmə! Yerindən uru durğıl! Ala çadırın yer üzünə dikdirgil! Atdan ayğır, dəvədən buğra, qoyundan qoç öldürgil! İç Oğuzun, Dış Oğuzun bəylərin üstünə yığnaq etgil! Ac görsən doyurğıl, yalıncıq görsən donatğıl! Borclunu borcundan qurtargil. Ulu toy eylə! Hacət dilə! Ola kim bir ağzı dualının alqışıyla tanrı bizə bir yetman əyal verə" **(5, 21)**. Göründüyü kimi, bu təfsilat bütünlükdə türk toplumunun təsəvvüründəki inamları, əxlaq və davranışı, nizamı, ağzı dualı timsalnıda alqışın müstəcəb olmasını vurğulayır. Dastan mətnində də həmin tövsiyyənin yerinə yetirilməsi ilə Dirsə xanın övladının (Buğacın) dünyaya gəldiyini görürük. Eyni təsəvvür və hadisə axarı "Koblandıbatır"da da təkrarlanır.

Üz tutdu ocaqlara,
Qurban kəsdi köhləni.
Bəybisəsi analıq
Çatanda əlli yaşa.
Düşdü uşaq boyuna. **(6, 11)**.

Ümumiyyətlə, epik yaddaş özünün funksional rolu və hadisələri əks etdirmə imkanları ilə müstəsna spesifiklik sərgiləyir. Uşağın dünyaya gəlişi, erkən yaşdan fərqli davranışları, altı yaşında qeyri-adi bacarıq, güc, ağılla özünü göstərməsi ("altı yaşa çatanda Koblan aslana döndü"), qonur atı minməsi, hərəkətlərinin qıpçağın sevinci, uğuru kimi anlaşılması etnosun yaşam fəlsəfəsini nümayiş etdirir. Türk dastan yaradıcılığı əks etdirmə üsulları, hadisə və epizodların qəhrəmanın həyatı timsalında baş verənləri ifadəyə köklənməklə əsaslı bir mükəmməlliklə, sistemin yaranışı ilə diqqət önünə gəlir. "Oğuznamələr" üzərində təhlillər aparan tədqiqatçılar bunları ənənənin ümumi axarı və qəlibləşmiş təsəvvür tipi olaraq təhlil edirlər. Məlum olduğu kimi, "Oğuznamə epik dünyanın mənzərəsinə, personajlar sisteminə, janrına, poetik ifadə üsullarına və s. görə özünəqədərki və özündən sonrakı, eləcə də onunla yanaşı epik ənənələrdən fərqlənir. Yəni Oğuznamə yaradıcılığı bu anlayışı ifadə edən bütün ölçülərə görə ayrıca epik ənənədir. Bununla yanaşı bu ənənə quru yerdə yaranmayıb. O, bütün epik ənənələr kimi, özündən əvvəlki şüifahi ənənəyə söykənir" **(4, 107)**. Əlbəttə istər Oğuznamə, istərsə də şifahi bədii düşüncənin bütün örnəkləri bazis olaraq ənənəyə dayanır və onun əsasında əlavə şaxələnmələrə, yeni model və epizodların gətirilməsinə səbəb olur.

"Koblandıbatır" türk epos yaradıcılığının ən mükəmməl örnəyi kimi söyləyicilərin (akınların) repertuarında daşınan elementləri, təhkiyə üsullarının əhatələdiyi zənginliyi özündə əks etdirməklə etnosun qəhrəmanlıq tarixini təcəssüm etdirir. Arxaik elementlər, bahadırlıq nağıllarına xas qəhrəmanlıq epizodları, düşmən üstünə gedişdən dövlətqurmaya qədər bir zənginlik burda ifadəsini tapır. Evlilik, yad tayfalarla üzləşmə, qəhrəmanlıqlar göstərmə, düşmən üzərinə gedişlər və qələbə bütün məqamları ilə toplumun yaşam fəlsəfəsini, mücadiləsini əhatələyir. Doxsan nökər qul, Yestemis, Koblandı birgə fəaliyyəti ilə Toktarbəyə arxa olur. Qonşu məmləkətdə Köktim -Aymaq xan haqqında bilgi verən Yestemiş (qoçaq qul) onun ərazisinin gözəlliklərindən, qızından (Qurtqa) söhbət açır və Koblandıda ona qarşı məhəbbət yaranır, onu görmək fikrinə düşür. Yestemisin Koblandını fikrindən daşındırmaq cəhdləri baş tutmur, silahlanıb Qurtqanı görməyə gedir. Hadisə axarında baş verənlər, yaranmış xaosun (atanın qızını ərə verməsi, toy mərasimi, qoyulan şərt (sikkənin vurulması və s.) nizamı və qəhrəmanlıqlar bütün incəlikləri ilə dastanda özünə yer alır. Qurtqanı alıb yurduna dönən Koblandı "pirlər, övliyalar kömək oldu" söyləyir.

Dastanda Koblandının həyatının müxtəlif məqamları, onun səfərləri, düşmən üzərinə gedişləri, el qurma töröni və s. təfsilatlı şəkildə özünün ifadəsini tapır. Ayrı-ayrı epizodlar, məsələn, toy mərasimi və onun elat səviyyəsində ənənəviləşməsi müxtəlif səviyyələrdə özünə yer alır. "Əkədən sənə yaxın kimidi", Qaraqıpçaq çölündə Koblandıya münasibət, doğmadan yaxın olma, onun bir qəhrəman kimi uca tutulması elat təsəvvüründə böyük, alp-ərən

DOI:10.30546/gdu.5.2025

statusunu sərgiləyir. Dastan informasiyası xalq mərasim zənginliyində "otuz gün şənləndilər, qırx gün kef etdilər" baxımından qəhrəmanın və türk toplumunun toy, şülən təsəvvürünü açıqlayır. "Əgər səbr eyləsən məqsədinə çatarsan" deyimi bu baxımından xalq düşüncəsində daşlaşmış ifadə kimi min illərin gəldiyi nəticənin yekun aktıdır. Koblan, Qarlıqa, Qurtqa şəxsində dastanda ifadəsini tapan hadisələr ailə, dostluq səviyyəsində nümunəyə çevrilir. Dastan öz janr imkanları ilə qəhrəmanlığı baba, ata oğul (Toktarbəy, Koblandı, Kiikbay) timsalında təqdim etməklə etnosun yaşarlığı aspektində reallığın, mövcudluğun nişanəsi olmanı sərgiləyir.

**Nəticə**. Beləliklə, "Koblandıbatır" janr müstəvisində əhatələdiyi məzmunla etnosun tarixini, arxaik yaddaşda olanlardan üzü bəri yaşananları, adət-ənənəsini, məişətini və s. əks etdirmək baxımından nümunəyə çevrilir. Aparılan mücadilə, Koblandının Kobikti, Şoşay xan, Alşaqırla və s. qarşılaşmaları və qələbələri, son olaraq Qarlıqa adlı igid qızla qarşılaşması və ondan Kiikbay adlı oğlunun olması türk xalqları timsalında mübarizənin və yaşamın dönməzlik göstəricisidir.

"Alpamış", "Koblandı", "Qəmbər", "Qırx batır", "Çülsə-qız", "Ayman Şolpan" və s. mədəniyyət abidələrinin əhvalat, hadisə və söyləmədən geniş həcmli strukturda dastana gəlişi tədrici və həm də uzunmüddətli bir proses kimi xalqın qəhrəmanlıq tarixini öz içinə almaq xüsusiyyəti ilə səciyyələnir. Folklorşünaslar, etnoqraflar, dastan tədqiqatçıları bir istiqamətdə bu nümunələrin mühüm qismini Qızıl Orda dönəmi ilə bağlayırlar. Ancaq türk xalqlarının dastan təsəvvürü mahiyyətində olanlarla daha qədimlərə bağlanır, protürk zamanında olanlardan, Turan-Altay mədəniyyətindən üzü bəri gəlinən yolu özündə ehtiva etmək imkanları ilə spesifikləşir. Bütünlükdə bunlar ənənənin davamlığına və gəlinən yolun zənginliyinə bağlanmaqla mənəvi materiyanın etnopotensiya səviyyəsində ötürücülüyünü diqqət önünə gətirir.

### ***Ədəbiyyat***

1.Ауэзов М. Киргизская народная героическая поэма «Манас». Киргизский героический эпос Манас. Москва: издательство Академии Наук ССР, 1961, с.15-84 (378 с.)
2. Cəfərov N. Klassiklərdən müasirlərə. Bakı: Çaşıoğlu, 2004, 272 s.
3. Əfəndiyev P. Dastan yaradıcılığı. Bakı: ADPU, 1999,166 s.
4. Əsgər Ə. Oğuznamə yaradıcılığı. Bakı: Elm və təhsil, 2013, 340 s.
5. Kitabi-Dədə Qorqud. Bakı: Gənclik, 1978, 182 s.
6. Koblandıbatır". Bakı: Elm və təhsil, 2017, 316 s.
7. Manas. I c, Bişkek, 2014, 370 s.
8. Рошияну Н. Традиционные формулы сказки. Главная редакция восточной литературы издательства «Наука», Москва, 1974, 215 стр.
9. Селезнев Ю.В. Элита Залатой Орды. Казань, Издательство «Фен» АН РТ, 2009, 232 стр.
10. Урманче Ф. Тюркский героический эпос. Казань, Института языка, литературы и искусства, 2015, 448 стр.
11. Эдиге. Вариант И.Капаева; худож. перевод на рус. яз. Ф.Сидахметовой. Половецкая луна. 1991, №1, стр.38-64.

DOI:10.30546/gdu.5.2025

## "KOBLANDYBATYR AS AN IRREPLACEABLE EXAMPLE OF THE ETHNOENERGETIC SYSTEM

***Naghiyeva Jale Khalil***

***Summary***

The epic ideology is the most perfect example of national self-awareness with all its essence and polyphonic content. It carries a functional content with the leading feature of being transferred to the epic by the same system that the myth contains, as well as by additions. The rich cultural monuments of the peoples of the world, down to the most subtle elements of the archaic layer, in whatever way they enter the myth, manifest themselves in the epic as the main stream. “Bilqamıs”, “Manas”, “Oğuz Kağan”, “Alpamış”, “Boz Qurd”, “Köç”, “Törəyiş”, “Kitabi-Dədə Qorqud”, “Uralbatır”, “Edige”, “Corabatır”, “Maday Kara”, “Kitabi-Battal Qazi”, “Koroğlu” and other epic series are monumental cultural events that determine the main stream of the Turkic ethnic code. More precisely, it is a chronicle of the life and existence of the ethnos at the level of Turkism from the beginning of the world to the present day. Pro-Turks, who are based on the ideology of the universal state, have taken the same thought and idea as a model of identity in later periods.

The sacred order, the idea put forward by the family institution, as well as the idea model determined by the social consortium, are rooted in the inculcation of the irreversibility of the path taken by repeating it in the tribal and tribal spheres at the level of existence. Epic thought, by taking the lead in this process, has also made it its goal to exhibit it at the level of belief, creed, proverbs, parables, legends, narrations, ceremonial folklore, dance, music, children's games, etc. As an example of this, "Koblandibatır" forms a fundamental idea as the most perfect example of national self-awareness in Turkish epic thought.

## “КОБЛАНДЫБАТЫР” КАК НЕЗАМЕНИМЫЙ ПРИМЕР ЭТНОЭНЕРГЕТИЧЕСКОЙ СИСТЕМЫ

***Нагиева Жала Халил***

***Резюме***

Идеология эпоса, при всей ее сути и полифоническом содержании, является наиболее совершенным образцом национального самосознания. Те, которые были перенесены из мифа и имеют функциональное содержание, обусловленное особенностью их передачи в эпос с дополнениями, в соответствии с той же системой, которая содержится в мифе. Богатейшие памятники культуры народов мира, вплоть до самых тонких элементов архаического слоя, проявляются в эпосе так же, как и в основном. Эпические циклы “Bilqamıs”, “Manas”, “Oğuz Kağan”, “Alpamış”, “Boz Qurd”, “Köç”, “Törəyiş”, “Kitabi-Dədə Qorqud”, “Uralbatır”, “Edige”, “Corabatır”, “Maday Kara”, “Kitabi-Battal Qazi”, “Koroğlu” и другие являются монументальными культурными событиями, определяющими русло тюркского этнического кода. Точнее, это летопись жизни и существования этноса на уровне тюркизма, дошедшая от начала мира до наших дней. Протурецкие сторонники, которые основывались на идеологии универсального государства, использовали ту же мысль и концепцию в качестве модели идентичности в более поздние периоды.

Священный порядок, концепция, выдвигаемая институтом семьи, а также концептуальная модель, определяемая социальным консорциумом, коренятся во внедрении необратимости пройденного пути путем его повторения в родовой и племенной сфере, на уровне бытия. Ведущую роль в этом процессе играет эпическая

DOI:10.30546/gdu.5.2025

мысль, а также верования, символы веры, пословицы, притчи, легенды, сказки, обрядовый фольклор, танцы, музыка, детские игры и т. д. Он поставил перед собой цель выставляться на самом высоком уровне. Примером этого является «Кобландибатыр», формирующий фундаментальную идею как наиболее совершенный образец национального самосознания в турецкой эпической мысли.

## "KOBLANDIBATUR" ETNONERJIK SISTEMIN VAZGEÇILMEZ BIR ÖRNEĞI OLARAK

***Nagiyeva Jale Halil***

***Özet***

Destanın ideolojisi, bütün özü ve çok sesli içeriğiyle, millî benliğin en mükemmel örneğidir. Mitlerden aktarılan ve aynı sistemle, mitin içerdiği eklemelerle destana aktarılabilme özelliğinden hareketle işlevsel bir içeriğe sahip olanlar. Dünya halklarının zengin kültürel anıtları, arkaik katmanın en ince unsurlarına kadar, ana metinde olduğu gibi destanda da kendini gösterir. "Bilqamıs", "Manas", "Oğuz Kağan", "Alpamış", "Boz Qurd", "Köç", "Törəyiş", "Kitabi-Dədə Qorqud", "Uralbatır", "Edige", "Corabatır", "Maday Kara", "Kitabi-Battal Qazi", "Koroğlu" gibi destansı diziler Türk etnik kodunun ana akımını tanımlayan anıtsal kültürel olaylardır. Daha doğrusu, dünyanın başlangıcından günümüze kadar gelen Türklük düzeyindeki etnosun yaşam ve varoluşunun bir kroniğidir. Evrensel devlet ideolojisini esas alan Türk yanlıları da daha sonraki dönemlerde aynı düşünce ve kavramı kimlik modeli olarak kullanmışlardır.

Aile kurumunun ortaya koyduğu kavram olan kutsal düzen, toplumsal konsorsiyumun tanımladığı kavramsal model, kabile ve aşiret alanında tekrarlanarak gidilen yolun geri döndürülemezliğinin varoluş düzeyinde aşılanmasından kaynaklanmaktadır. Bu süreçte destansı düşüncenin yanı sıra inançlar, mezhepler, atasözleri, benzetmeler, efsaneler, masallar, törensel folklor, dans, müzik, çocuk oyunları vb. ön plandadır. En üst seviyede performans sergilemeyi kendine hedef edinmiş. "Koblandibatır" bunun bir örneği olup, Türk destan düşüncesinde millî benliğin en mükemmel örneği olarak temel bir düşünceyi oluşturmaktadır.

***Rəyçi: dosent Etibar Talıblı***
***Daxil olma tarixi 16 iyul 2025-ci il***